

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ *qapısı*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 87 (23.249)

*10 may 2019-cu il, cümə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

İkinci Dünya müharibəsində faşizm üzərində qələbənin 74-cü ildönümü münasibətilə mayın 9-da Bakıda təntənəli mərasim keçirilib.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 9-da Bakının Yasamal rayonunda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyinin və ilk DOST mərkəzinin inzibati binasının açılış mərasimində iştirak ediblər.

* * *

Mayın 9-da Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında görkəmli bəstəkar, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, SSRİ və Azərbaycan Respublikasının Xalq artisti, Dövlət və Heydər Əliyev mükafatları laureatı Arif Məlikovla vida mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.



# Naxçıvanda faşizm üzərində qələbənin 74-cü ildönümü qeyd olunub





Mayın 9-da Naxçıvan şəhərindəki Xatirə kompleksində faşizm üzərində qələbənin 74-cü ildönümü münasibətilə tədbir keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov İkinci Dünya müharibəsi veteranları ilə görüşmüş, onları faşizm üzərində qələbənin 74-cü ildönümü münasibətilə təbrik etmişdir.



Sonra Ali Məclisin Sədri abidənin önünə gül dəstəsi qoymuş, müharibədə həlak olmuş azərbaycanlıların xatirəsini ehtiramla yad etmişdir.

Mərasim iştirakçıları və ictimaiyyətin nümayəndələri də abidə önünə gül dəstələri düzmüşlər.

Naxçıvan Hərbi Qarnizonunun nümunəvi Hərbi Orkestrinin ifasında marşlar səslənmişdir.

Faşizm üzərində qələbənin əldə olunmasında Azərbaycan xalqının böyük xidmətləri olmuşdur. 1941-1945-ci illər müharibəsində igid Azərbaycan oğulları xalqımıza xas qəhrəmanlıq və hərbi şücaət nümunəsi göstərmişlər. Xalqımızın sarsılmaz iradəsi və inamı ön və arxa cəbhəni birləşdirmiş, faşizm üzərində qələbəyə mühüm töhfə vermişdir. Müharibənin başlandığı ilk gündən səfərbərlik elan olunmuş, on minlərlə azərbaycanlı döyüş cəbhəsinə könüllü göndərilmək üçün ərizə vermişdir. Müharibə illərində 700 minə yaxın azərbaycanlı cəbhəyə yollanmış, onların 450 mini və ya 65 faizi orden və medallarla təltif olunmuş, 130 nəfər isə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür. Muxtar respublikamızın əhalisi də alman faşizmi üzərində qələbənin qazanılmasında böyük qəhrəmanlıqlar göstərmişdir. Ön cəbhəyə yola salınan 30 min igid oğul və qızımızdan 15 mini müharibədə həlak olmuşdur. 3 həmyerlimiz Sovet İttifaqı Qəhrəmanı kimi yüksək ada layiq görülmüş, 1 nəfər “Şöhrət” ordeninin hər üç dərəcəsi ilə, 600 nəfər isə müxtəlif orden və medallarla təltif edilmişdir.

Azərbaycan xalqı arxa cəbhədə də ordunun ehtiyacını ödəmək üçün qüvvələri səfərbərliyə almışdır. Böyük qələbənin əldə edilməsində Azərbaycan nefti xüsusi rol oynamışdır. Həmin dövrdə Sovetlər İttifaqında çıxarılan neftin 80 faizi Azərbaycanda hasil edilirdi. Qələbənin təmin edilməsində həlledici rol oynamış sovet ordusunun tank və təyyarələrinin böyük əksəriyyəti Azərbaycan nefti hesabına hərəkətə gətirilirdi. Görkəmli akademik Yusif Məmmədəliyevin 1941-1945-ci illərdə neft-kimyası sahəsində də ixtiraları bu baxımdan xüsusilə qeyd edilməlidir.

Xalqımızın ümummilli lideri Heydər Əliyev faşizm üzərində qələbənin qazanılmasında xidməti olan insanlara daim diqqət göstərmiş, 1941-1945-ci illər müharibə veteranlarını ***“Azərbaycan xalqının qızıl fondu”*** adlandırmışdır. Ulu öndərimiz Naxçıvan Muxtar Respublikasının rəhbəri olarkən muxtar respublikada bu bayram geniş qeyd olunmuş, ulu öndərin Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra isə 9 May respublikamızda Qələbə Günü kimi rəsmiləşdirilmiş, dövlət bayramları sırasına daxil edilmiş, müharibə veteranlarının sosial müdafiəsi ildən-ilə gücləndirilmişdir.

Bu gün ulu öndərimizin yolunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də 1941-1945-ci illər müharibəsi iştirakçılarına, arxa cəbhə veteranlarına xüsusi diqqət və qayğı göstərir. Ölkə başçısının “1941-1945-ci illər İkinci Dünya müharibəsi iştirakçılarına, həlak olmuş və ya sonradan vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında” 2019-cu il 23 aprel tarixli Sərəncamı müharibə veteranlarına göstərilən diqqət və qayğının bariz nümunəsidir.

İkinci Dünya müharibəsində şərəfli döyüş yolu keçmiş həmyerlilərimizin tarixi şücaətləri gənc nəsil üçün əsl vətənpərvərlik nümunəsidir. Müharibə iştirakçılarına daim yüksək diqqət və qayğı göstərən ümummilli liderimiz Heydər Əliyevin dediyi kimi: ***“Hər bir gənc veteranlarımızın qəhrəmanlıq nümunələrindən, əmək fədakarlığından özü üçün nümunə götürməlidir. O qəhrəmanlıq nümunələri bugünkü nəslimiz, gələcək nəsillər üçün***




***örnək, məktəb, təcrübə mənbəyi olmalıdır”.***

Müharibə veteranları daim qayğı ilə əhatə olunduqlarını bildirmiş, göstərilən diqqətə görə Ali Məclisin Sədrinə minnətdarlıq etmişlər.

Həmin gün muxtar respublikanın rayon mərkəzlərində də faşizm üzərində qələbənin 74-cü ildönümü ilə bağlı tədbirlər keçirilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Müharibə veteranlarına avtomobillər təqdim olunub





Ümummilli liderimiz Heydər Əliyev ölkəmizə rəhbərliyinin hər iki dövründə müharibə veteranlarına, sosial qayğıya ehtiyacı olan vətəndaşlara qayğı ilə yanaşmışdır. Dahi şəxsiyyətin müəyyənləşdirdiyi siyasi xətt hazırda ölkəmizdə uğurla davam etdirilir. Bu gün Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında müharibə veteranlarına diqqət və qayğı sosial siyasətin əsas istiqaməti kimi müəyyənləşdirilmişdir.

Mayın 9-da – faşizm üzərində qələbənin 74-cü ildönümündə Naxçıvan şəhərində 2 nəfər 1941-1945-ci illər müharibəsi iştirakçısına, 2 Azərbaycan Vətən Müharibəsi veteranına və 3 hərbi xidmət vəzifələrinin icrası zamanı sağlamlığını itirmiş şəxsə "NAZ-Lifan-320" markalı minik avtomobili təqdim edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov mərasimdə iştirak etmişdir.



Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Nicat Babayev tədbirdə çıxış edərək demişdir ki, muxtar respublikada Azərbaycanın ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi zamanı sağlamlıq imkanları məhdudlaşmış şəxslərin və şəhid ailələrinin, habelə 1941-1945-ci illər müharibəsi iştirakçılarının rifah halının yaxşılaşdırılması sahəsində ardıcıl tədbirlər görülür. Azərbaycan Vətən Müharibəsi iştirakçıları və şəhid ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, minik avtomobillərinin verilməsi, onların tibbi və sosial bərpası diqqət mərkəzində saxlanılır. 2019-cu ilin ötən dövründə müvafiq kateqoriyalı 266 nəfərin bərpa mərkəzlərində müalicələri təşkil edilib, 78 şəxsə sanatoriya və müalicə pansionatlarına göndəriş verilib, 8 ailəyə mənzil, 1 nəfərə minik avtomobili təqdim olunub. Nicat Babayev sağlamlıq imkanları məhdud şəxslərə göstərilən diqqətə və qayğıya görə Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək demişdir: Azərbaycanda möhkəm dövlətçilik mövcuddur. Ümummilli liderimiz Heydər Əliyevin əsasını qoyduğu dövlətçilik prinsipləri ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlətçilik olan yerdə isə vətənpərvərlik, inkişaf, sabitlik və sosial qayğıya ehtiyacı olanlara dövlət qayğısı olur. Bu gün ölkəmizdə inkişaf və sabitlik vardır. Sosial himayəyə ehtiyacı olan insanlara dövlət qayğısı göstərilir. Müharibə veteranlarına və sosial himayəyə ehtiyacı olanlara minik avtomobillərinin təqdim olunması da Azərbaycan dövlətçiliyinin mühüm göstəricilərindəndir.

"Bu gün ölkəmizdə İkinci Dünya müharibəsi iştirakçıları, Azərbaycan Vətən Müharibəsi veteranları, xidməti vəzifələrinin icrası zamanı sağlamlıq imkanları məhdudlaşmış şəxslər və digər sosial himayəyə ehtiyacı olan insanlar dövlət qayğısı ilə əhatə olunublar. Onlara avtomobillər və mənzillər verilir, müalicəyə göndərilir, təqaüdləri artırılır. Bu da Vətən qarşısında borclarını layiqincə yerinə yetirən, vətənpərvərlik nümunəsi göstərən insanların fəaliyyətinə dövlətimizin verdiyi qiymətdir", – deyən Ali Məclisin Sədri vəzifələrini layiqincə yerinə yetirdiklərinə görə avtomobil təqdim olunanlara təşəkkür etmişdir.

Sonra Ali Məclisin Sədri avtomobillərin açarlarını təqdim etmişdir.

Avtomobillərlə təmin olunanlar göstərilən qayğıya görə minnətdarlıq etmişlər. Onlar bunu Vətən, xalq qarşısında xidməti olan şəxslərə hərtərəfli dövlət qayğısı kimi dəyərləndirmiş, bundan sonra da Heydər Əliyev siyasi xəttinə sadiq qalacaqlarını bildirmişlər.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

# Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

*Tarixi proseslərə nəzər saldıqda bir daha aydın olur ki, ictimai-siyasi formasiyalarda məhz xarizmatik liderlər məsuliyyəti öz üzərlərinə götürərək xalqın daim arzusunda olduğu azadlıq, müstəqillik və milli dövlətçilik kimi müqəddəs ideallarn gerçəkləşməsində həlledici rol oynayır, bununla da özlərinə əbədiyaşarlıq qazanırlar. Tanrı belə şəxsiyyətlərə həm də xilaskarlıq missiyası verir – zamanın ən sərt sınaqlarından çıxmış bu insanlar bütün bir milləti, ölkəni fırtınalardan, bəlalardan, fəlakətlərdən xilas edir, onu işıqlı gələcəyə aparır. Azərbaycan xalqının ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyev də məhz belə şəxsiyyətlərdəndir.*

Xalqımızın müstəqillik arzusunu gerçəkliyə çevirərək milyonların qəlbində əbədi abidə ucaldan ulu öndərimiz həm də müstəqil Azərbaycanın inkişaf strategiyasının müəllifi kimi böyük ehtiramla anılır. Gəncliyində memar olmaq istəyən dahi şəxsiyyət özünün şah əsəri olan müstəqil Azərbaycan Respublikasını yaratmışdır.

Ümummilli liderimiz siyasi müdriklik və düha ilə hələ totalitar sovet rejimi dövründə Azərbaycan xalqının müstəqil dövlətçilik konsepsiyasını formalaşdırmış, sonralar isə ilk tarixi fürsətdə elə özü də bu mühüm siyasi konsepsiyanı həyata keçirmişdir. Düz 35 illik bir epoxanın aparıcı şəxsiyyəti, nəhəng siması olan dahi öndərin böyük siyasətdə qət etdiyi çətin və şərəfli yol, siyasi iradə və obyektiv mövqe, atdığı qətiyyətli addımlar, Azərbaycan xalqı və dövlətçiliyinə bəxş etdiyi töhfələr əsl məktəbdir. Heydər Əliyev siyasi məktəbi...

10 may 1923-cü ildə Naxçıvanda dünyaya göz açan, gəncliyindən öz dərin zəkası və fitri istedadı ilə seçilən, sovet dövlət təhlükəsizlik orqanlarında çalışmaqla siyasi yetkinlik qazanan, dövlət idarəçiliyi sirlərinə yiyələnən ulu öndər Heydər Əliyev deyirdi: ***"Mən balaca bir evdə, zəhmətkeş ailəsində, bir yaz günü dünyaya göz açmışam. Anadan olanda, yəqin ki, beş-on, uzağı otuz-qırx nəfər sevinib. İndi, bəlkə də, bir o qədər qeyri-təvazökar səsləndi, amma deməliyəm ki, anam məni bütövlükdə Azərbaycanımız üçün dünyaya gətirib. Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır. Bütün şüurlu ömrümü onun inkişafına, tərəqqisinə həsr etmişəm".***

Bu gün müstəqil Azərbaycan dövlətinin qazandığı hər bir uğurun təməlində ümummilli liderimizin müəllifi olduğu inkişaf strategiyası dayanır. Bu strategiyanın tarixi ulu öndərimizin 1969-cu ildə Azərbaycana rəhbər seçilməsindən başlayır. Bu dövrədək zəngin iqtisadi potensialının, təbii sərvətlərinin olmasına baxmayaraq, ölkəmiz ittifaq respublikaları arasında bütün göstəricilərə görə axırıncı yerləri tuturdu. Görkəmli dövlət xadiminin respublikamızda rəhbərliyə gəlməsi Azərbaycanda digər sahələrlə yanaşı, iqtisadi inkişafa da yol açmış və ölkəmiz qısa zamanda ittifaq tərkibində o zaman üçün müasir iqtisadiyyata malik respublikaya çevrilmişdi. O dövrdə dahi rəhbər sənaye və kənd təsərrüfatının inkişafına yönəlmiş çox mühüm qərarlar qəbul etmiş, 14 il ərzində 1048 sənaye obyekti tikilmişdir.

Ulu öndərimizin milli kadrların formalaşdırılması istiqamətində gördüyü işlər, həyata keçirdiyi məqsədyönlü siyasət xalqımızın gələcək müstəqilliyinə hədəflənmiş, milli özünüdərkin əsasını qoymuşdur. Bu dövrdə elm, təhsil, səhiyyə və mədəniyyətə qayğı da ön planda olmuşdur. Azərbaycanın bugünkü hərbi uğurlarının, milli hərbi kadrların formalaşdırılmasının əsası da ümummilli liderin qeyri-adi cəsarəti, şəxsi təşəbbüsü ilə 1971-ci ildə Azərbaycanda ilk hərbi məktəbin yaradılması ilə qoyulmuşdur.

Reallıqdır ki, müstəqil dövlətin yaradılması üçün müstəqil iqtisadiyyatın qurulması və kadr hazırlığı kifayət deyildi. Bunun üçün milli şüuru oyatmaq lazım idi. Ötən əsrin 70-ci illərindən başlanan milli-mədəni dirçəliş, özünüdərk, milli ruhun yüksəlişi xalqımızın illərdən bəri qəlbində yaşatdığı dövlətçilik ideyasının milli azadlıq mübarizəsində əsas hərəkətverici qüvvəyə çevrilməsinə zəmin yaratdı.

Türk dünyasının böyük oğlu 1982-1987-ci illərdə Siyasi Büronun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi yüksək dövlət vəzifələrində fəaliyyət göstərəndə də Azərbaycanın mənafeyini üstün tutmuş, keçmiş ittifaqın maddi resurslarının respublikamızın inkişafına yönəldilməsinə nail olmuşdur.

Sovetlər Birliyində hamı Heydər Əliyev-Azərbaycan birliyi ilə hesablaşır, heç kim Azərbaycanın inkişafının qarşısını almağa, əsassız torpaq iddiası irəli sürməyə cəsarət etmirdi. Təsadüfi deyil ki, qərəzli təzyiqlər nəticəsində 1987-ci ildə ulu öndərimiz siyasi hakimiyyətdən uzaqlaşdırılandan 15 gün sonra Azərbaycanın Dağlıq Qarabağ ərazisinin müstəqilliyi məsələsi gündəliyə çıxarıldı. Bununla da Azərbaycanın ağrı-acılı günləri başlandı.

Azərbaycana edilmiş hərbi təcavüzdən – 1990-cı ilin 20 Yanvar faciəsindən sonra Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunu və şəxsən baş katib Mixail Qorbaçovu kəskin şəkildə ittiham edən ulu öndərə qarşı böyük təzyiqlər başlandı. Bütün bunlara baxmayaraq, O, 1990-cı il iyul ayının 20-də Bakıya, iki gün sonra isə doğma Naxçıvana gəlmiş, burada böyük izdiham, sevgi və coşqu ilə qarşılanmışdır.

Görkəmli dövlət xadiminin doğulub boya-başa çatdığı Naxçıvana dönüşü tarixi zərurət idi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bununla bağlı demişdir: ***"Sovet İttifaqının dağıldığı ərəfədə və ondan sonra Naxçıvan çox ağır günlər yaşayıb. O illərdə ancaq ulu öndər Heydər Əliyevin əzmkarlığı, qətiyyəti və siyasi bacarığı Naxçıvanı böyük bəlalardan qorudu... O, məcbur olub Moskvadan Bakıya döndü. Ancaq Bakıda o vaxtkı rəhbərlik təzyiqləri davam etdirirdi və Heydər Əliyev öz Vətəninə, doğulduğu yerə – Naxçıvana gəldi. Onun gəlişi Naxçıvanı böyük bəlalardan qurtardı. Naxçıvanlılar Heydər Əliyevi qorudular, Heydər Əliyev isə Naxçıvanı qorudu".***

Dahi şəxsiyyət Heydər Əliyevin böyük və mənalı ömrünün Naxçıvanda keçən 3 ili ərzində görülən işlər müstəqil dövlətimizin qurulmasına yönəldilmiş strategiyanın tərkib hissəsi idi. Onun 1990-1993-cü illərdə Azərbaycan və Naxçıvan parlamentlərinin deputatı, Naxçıvan Muxtar Respublikasının rəhbəri kimi fəaliyyət göstərməsi həm milli dövlətçiliyin bərpası istiqamətində qəti addımların atılması ilə nəticələnmiş, həm də muxtar respublikamız işğal təhlükəsindən qorunmuşdur. 1990-cı ilin noyabr ayında dahi şəxsiyyət Heydər Əliyevin Sədrliyi ilə keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk sessiyasında qəbul olunan tarixi qərarlar müstəqil dövlətçiliyin konseptual əsaslarının yaradılmasına hesablanmışdı.

Sovetlər Birliyinin hələ mövcud olduğu bir dövrdə üçrəngli milli bayrağımızın Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul edilməsi, Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "Sovet Sosialist" sözlərinin çıxarılması böyük cəsarət tələb edirdi. Bütün bunlar 1991-ci ildə Azərbaycanın müstəqilliyini elan etməsinə şərait yaratmışdır. Bu tarixi hadisə nəinki Azərbaycanın, Sovetlər Birliyinin digər müttəfiq respublikalarının da müstəqillik qazanmasına yol açmışdır. Digər tərəfdən, 1990-1993-cü illərdə Naxçıvan Muxtar Respublikasında dövlət müstəqilliyinin bərpası istiqamətində həyata keçirilən tədbirlər təkcə siyasi müstəvidə getmirdi. Yeni iqtisadi təfəkkürə söykənən, bazar iqtisadiyyatı tələblərinə uyğun iqtisadi model formalaşdırılırdı. Muxtar respublikanın iqtisadi problemlərinin həllinə ciddi diqqət yetirilir,

*Ardı 3-cü səhifədə*

blokadanın vurduğu ziyanın aradan qaldırılması üçün tədbirlər görülür, quruculuq işləri aparılırdı.

Həmin dövrdə Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin təşkili ilə Naxçıvanın müdafiəsi üçün sistemli tədbirlər görülmüş, ölkəmizdə ilk dəfə Naxçıvanda nizami ordu hissələri yaradılmışdır. Ulu öndər 1992-ci ildə tarixi Moskva və Qars müqavilələrini gündəmə gətirməklə Ermənistanın təcavüzkar siyasətini, Naxçıvanın muxtariyyət statusunu, əzəli Azərbaycan torpağı kimi toxunulmazlığını beynəlxalq miqyasda bir daha təsdiqləmiş, ağır blokada şəraitində olan muxtar respublika iqtisadi böhrandan çıxarılmışdır. Dahi öndərin Naxçıvandakı siyasi fəaliyyəti ərzində ərazinin erməni işğalından müdafiəsi, milli şüurun dirçəlişi, milli dövlət strukturlarının formalaşması kimi mühüm tarixi nailiyyətlər əldə olunmuş, xalqla həmrəyliyin təntənəsi öz təsdiqini tapmışdır. Müstəqilliyin ilk illərində ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvan Azərbaycanın əsl dövlətçilik məktəbi funksiyasını həyata keçirmişdir.

Xalqımızın böyük oğlu tarixin ən çətin və məsuliyyətli anlarında Azərbaycan xalqının ruhuna nəfəs kimi qayıtmış, onu sevərək hifz etmiş, milli mövcudluğunu qoruyaraq xilaskarlıq missiyasını yerinə yetirmişdir. Taleyin hökmü ilə iki dəfə bu missiyanı üzərinə götürən ulu öndər hər dəfə Azərbaycanın müqəddəratının həll olunduğu təhlükəli və mürəkkəb məqamlarda xalqın köməyinə çatmış, ölkəmizi böyük bəlalardan qurtarmışdır.

1993-cü ildə Azərbaycan xalqının təkidli tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə qayıdan ulu öndərimiz on il ərzində əsrlərə bərabər işlər görmüş, müstəqil Azərbaycanın xilaskarı və qurucusu kimi böyük tarixi missiyanı uğurla həyata keçirmişdir. Məhz Heydər Əliyev dühası Azərbaycan xalqını, Azərbaycan dövlətçiliyini, Azərbaycanın iqtisadiyyatını dağılmaq, məhv olmaq təhlükəsindən xilas etmişdir.

Görkəmli dövlət xadiminin bütün siyasi uğurlarının əsasını təşkil edən, onu dünya azərbaycanlılarının ümummilli lideri səviyyəsinə yüksəldən milli dövlətçilik təlimi, Azərbaycançılıq məfkurəsidir. Bu məfkurəni yüksək dövlətçilik təlimi səviyyəsinə məhz dahi Heydər Əliyev gətirmişdir.

Böyük şəxsiyyətin ideyaları, amalları bu gün də Azərbaycanın yoluna işıq saçır, xalqımızı xoşbəxt gələcəyə aparır. Xalqımız əmindir ki, ümummilli liderimizin siyasi kursu möhkəm əllərdədir.

Dünya dövlətləri sırasında layiqli yerini tutan Azərbaycanın ulu öndərimiz tərəfindən müəyyənləşdirilən inkişaf xəttini hazırda ölkə başçısı cənab İlham Əliyev uğurla davam etdirir. Ölkə rəhbəri nəinki regionda, bütövlükdə, dünyada qəbul edilmiş siyasətçi kimi Azərbaycanı, onunla birlikdə Heydər Əliyev kursunu da yaşadır, ölkəmizi inamla daha xoşbəxt gələcəyə aparır, böyük uğurlara imza atır. Dövlət başçısının həyata keçirdiyi tədbirlər nəticəsində Azərbaycan daha da inkişaf edərək regionda lider dövlətə çevrilmişdir. Bu inkişaf ölkə həyatının bütün sahələrini və regionları əhatə edir.

Bu il 95 illiyi təntənəli şəkildə qeyd edən Naxçıvan Muxtar Respublikası da sürətli inkişaf yolundadır. Ulu öndərimiz çıxışlarında dəfələrlə Naxçıvanın muxtariyyət statusunun qorunub saxlanılmasının vacibliyini xüsusi olaraq vurğulamış, qədim diyarın təhlükəsizliyinin təmin olunmasında, inkişafında muxtariyyətin əhəmiyyətini qeyd etmişdir. Bu mənada, muxtariyyət həm də Heydər Əliyev əmanətidir. Onun 95 illik yubileyinin muxtar respublikada dövlət səviyyəsində qeyd olunması, eyni zamanda Heydər Əliyev siyasi xəttinə dönməz sədaqətin bariz nümunəsidir.

Ümummilli liderimizin yolu ilə gedən Azərbaycan və onun Naxçıvan Muxtar Respublikası iqtisadi və mədəni yüksəlişə layiqli töhfəsini vermişdir. Qədim diyarımız möhtəşəm inkişaf və tərəqqi yoluna çıxmışdır. Yüksək iqtisadi potensiala malik olan muxtar respublika da bu gün bütün dövlət proqramlarının, infrastruktur layihələrinin böyük uğurla həyata keçirilməsi sayəsində Naxçıvan artıq bir sıra mühüm göstəricilər üzrə iqtisadi təhlükəsizliyini təmin etmiş, mühüm beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilmişdir. Ötən il İslam Mədəniyyətinin Paytaxtı və ölkəmizin Gənclər Paytaxtı olan qədim diyarımız Azərbaycan Respublikası Prezidentinin ilk sədri olduğu “Caspian European Club”un 2017-ci və 2018-ci illər üçün ölkənin iqtisadi regionları üzrə hazırladığı investisiya reytinqində ən yüksək ümumi bal toplayaraq birinci olmuşdur. Şübhəsiz, bütün bunlar Heydər Əliyev siyasi xəttinin uğurla davam etdirilməsinin məntiqi nəticəsidir.

*Bugünkü yüksək sosial-iqtisadi göstəricilər təsdiq edir ki, Heydər Əliyevin ideyaları bu gün də yaşayır, sabah da ölkəmizin yoluna işıq salacaq, Azərbaycanın gələcəyi daha xoşbəxt, firavan olacaqdır. Çünki Onun ideyalarının tükənməz, yaradıcı gücü xalqımızın nurlu gələcəyi üçün sönməz məşəldir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi:* ***“Azərbaycanda Heydər Əliyev siyasətinin alternativi yoxdur. Bu siyasət yaşayacaq, özü ilə birlikdə Azərbaycan xalqını da yaşadacaqdır. Bu gün heç kimin şübhə etmədiyi reallığı bundan ibarətdir ki, dahi Heydər Əliyev faktoru təkcə iyirminci əsr Azərbaycanının deyil, iyirmi birinci əsr Azərbaycanının da gerçək simasını və inkişaf perspektivlərini müəyyənləşdirir”.***

**“Şərq qapısı”**

# Qələbə bayramı muxtar respublikamızın şəhər və rayonlarında yüksək əhval-ruhiyyə ilə qeyd edilib

## Şərur rayonu

*Faşizm üzərində tarixi qələbənin 74-cü ildönümü Şərur rayonunda bu il də geniş qeyd edilib. Tədbirin iştirakçıları əvvəlcə 1941-1945-ci illər müharibəsi qurbanlarının xatirəsinə Şərur şəhərində ucaldılan abidəni ziyarət edib, abidə önünə tər çiçəklər düzüblər.*

Tədbir Şərur Olimpiya İdman Kompleksində davam edib. Rayon İcra Hakimiyyətinin başçısı Kamal Cəfərov çıxış edərək faşizm üzərində qələbənin qazanılmasında azərbaycanlıların göstərdikləri misilsiz igidlik və qəhrəmanlıqları, respublikamızın bu dəhşətli müharibədə təkcə canlı qüvvə ilə deyil, təbii resursları ilə də iştirak etdiyini nəzərə çatdıraraq bildirib ki, Bakı neftinin faşizmin məhv edilməsində böyük rolu olub.



Vurğulanıb ki, İkinci Dünya müharibəsində 4 min 7 şərurlu iştirak edib, onlardan yalnız 2 min 218-i geri qayıdıb. Bu gün rayonda 5 İkinci Dünya müharibəsi veteranı, 178 nəfər həlak olmuş və sonradan vəfat etmiş müharibə veteranlarının dul arvadları və arxa cəbhə veteranı vardır.

Qeyd olunub ki, respublikamız müstəqillik qazandığı ilk illərdə hakimiyyətdə olanlar veteranlara diqqət və qayğını nəinki unutmuşdular, hətta onlara yad nəzərlərlə baxırdılar. Respublikamıza ikinci dəfə siyasi hakimiyyətə qayıdan ümummilli liderimiz müharibə veteranlarının sosial-məişət şəraitinin, maddi rifahının yaxşılaşdırılması istiqamətində müvafiq fərman və sərəncamlar imzaladı. Müstəqillik illərində təkcə Şərur rayonunda 88 müharibə əlilinə nəqliyyat vasitəsi, müharibə iştirakçılarına və şəhid ailələrinə, ümumilikdə, 42 mənzil verilib.

Diqqətə çatdırılıb ki, müharibə iştirakçılarına göstərilən dövlət qayğısı bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Veteranlar adından çıxış edən Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurası Şərur Rayon Təşkilatı sədrinin müavini Musa Şirəliyev göstərilən diqqət və qayğıya görə ölkə başçısına və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Tədbir boyu rayon Mədəniyyət Şöbəsinin hazırladığı ədəbi-bədii proqramda vətənpərvərlik mövzusunda şeirlər, marşlar səsləndirilib, mahnılar ifa olunub.

Sonda veteranlara hədiyyələr təqdim edilib. Səhhəti ilə əlaqədar tədbirdə iştirak edə bilməyənlərə hədiyyələr evlərində çatdırılıb.

**Elman MƏMMƏDOV**

## Babək rayonu



*1941-1945-ci illər müharibəsində alman faşizmi üzərində qələbənin 74-cü ildönümü Babək rayonunda da qeyd edilib. Bu münasibətlə keçirilən tədbirdə Babək Rayon İcra Hakimiyyətinin, idarə, müəssisə və təşkilatların kollektivləri, eləcə də rayon sakinləri iştirak ediblər.*

Əvvəlcə İkinci Dünya müharibəsində həlak olmuş babəklilərin xatirəsinə rayon mərkəzində ucaldılmış abidə ziyarət edilib, önünə gül dəstələri qoyulub, müharibədə həlak olmuş qəhrəman övladlarımızın xatirəsi ehtiramla yad edilib.

Sonra tədbir çay süfrəsi arxasında davam etdirilib. Tədbirdə Babək Rayon İcra Hakimiyyətinin başçısı Rasim Hüseynov çıxış edərək bildirib ki, 1941-1945-ci illər müharibəsinə Babək rayonundan 1275 nəfər yollanıb. Müharibəyə gedənlərdən 1058 nəfəri qəhrəmancasına həlak olub, bir çoxu müxtəlif orden və medallarla təltif edilib.

Bildirilib ki, bu gün 74-cü ildönümünü qeyd etdiyimiz qələbənin qazanılmasında iştirak etmiş qəhrəman veteranlarımıza xalqımızın böyük oğlu Heydər Əliyevin ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışından sonra hərtərəfli diqqət yetirilməyə başlanılıb. Hər il 9 May – Qələbə Günü ölkəmizdə böyük təntənə ilə qeyd edilir, həlak olmuş soydaşlarımız ehtiramla yad olunur, yaşayanlara yüksək səviyyədə qayğı göstərilir.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurası Babək Rayon Təşkilatının sədri Həsən Həsənov çıxış edərək dövlətimiz tərəfindən onlara göstərilən qayğıya görə minnətdarlığını bildirib.

Babək Rayon Mədəniyyət Sarayının “Zabul” instrumental ansamblının ifa etdiyi rəngarəng musiqi nömrələri tədbirə bayram ovqatı qatıb.

Sonda veteranlara hədiyyələr təqdim olunub.

**Muxtar RZAZADƏ**

## Ordubad rayonu

*Qələbənin 74-cü ildönümünə həsr olunmuş tədbirin əvvəlində 1941-1945-ci illər müharibəsi iştirakçılarının şərəfinə ucaldılmış Xatirə kompleksi ziyarət edilərək abidə önünə gül dəstələri qoyulub.*



Sonra Ordubad şəhərindəki “Emin” şadlıq sarayında 9 May – Qələbə Gününə həsr edilmiş tədbir keçirilib. Çay süfrəsi arxasında keçirilən tədbirin aparıcıları qeyd ediblər ki, həmyerlilərimizin faşizm üzərində qələbənin qazanılmasında göstərdikləri igidliklər xalqımızın qəlbinə əbədi həkk olunub.

Tədbirdə Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Elşad Məmmədov faşizm üzərində qələbənin 74-cü ildönümü münasibətilə veteranları təbrik edib. Çıxışında bildirib ki, Ordubad rayonunun qəhrəman övladları da müharibə illərində həm ön, həm də arxa cəbhədə böyük fədakarlıq və igidlik nümunələri göstəriblər.

Müharibə başlanandan rayondan cəbhəyə 3387 nəfər yollanıb, onların əksəriyyəti qanlı döyüşlərdə həlak olub.

Elşad Məmmədov daha sonra qeyd edib ki, İkinci Dünya müharibəsində şücaət göstərən Vətən övladlarının xidmətləri bu gün dövlətimiz tərəfindən layiqincə qiymətləndirilir.

Tədbirdə Yeni Azərbaycan Partiyası Ordubad Rayon Təşkilatının sədri Qürbət Rzayev, muxtar respublikanın Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurası Ordubad Rayon Təşkilatının sədri Fərrux Nağızadə, muxtar respublikanın Əməkdar mədəniyyət işçisi Vilayət Bağırov çıxış ediblər.

Müharibə veteranı Məhəmmədəli Sultanov onlara göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirib.

Tədbirə Ordubad Rayon Mədəniyyət Sarayının “Dübəndi” instrumental ansamblının ifa etdiyi rəngarəng musiqi nömrələri bayram tədbirinə xüsusi ab-hava qatıb.

Tədbirin sonunda müharibə veteranlarına hədiyyələr təqdim olunub.

**Abbas SEYİD**

## Culfa rayonu

*Alman faşizmi üzərində tarixi qələbənin 74 illiyi Culfa rayonunda da qeyd olunub. Tədbir iştirakçıları əvvəlcə rayon mərkəzində 1941-1945-ci illər müharibəsi iştirakçılarının xatirəsinə ucaldılmış abidənin önünə gül dəstələri qoyub, müharibədə həlak olmuş qəhrəman həmyerlilərimizin xatirəsini ehtiramla yad ediblər.*

Çay süfrəsi arxasında davam etdirilən tədbirdə qeyd olunub ki, qısa müddət ərzində bütün Avropanı, ümumilikdə isə dünyanı bürüyən bu müharibə miqyasına, iştirakçı ölkələrin və döyüşən orduların sayına, vurulan maddi zərərin və insan tələfatının həcminə görə bəşər tarixində baş vermiş müharibələrin ən böyüyü sayılır.




Vurğulanıb ki, bu döyüşlərdə naxçıvanlılar da böyük igidliklər göstəriblər. Onlardan 3-ü Sovet İttifaqı Qəhrəmanı kimi yüksək ada layiq görülüb, bir nəfər “Şöhrət” ordeninin hər üç dərəcəsi, 102-si “Şöhrət” ordeninin ayrı-ayrı dərəcələri, 105-i birinci və ikinci dərəcəli “Böyük Vətən müharibəsi”, 315-i “Qırmızı Ulduz”, 29-u “Qırmızı Bayraq” ordenləri ilə təltif olunublar.

Tədbirdə çıxış edən Culfa Rayon İcra Hakimiyyətinin başçısı Siyam Hacıyev müharibə veteranlarını qələbə bayramı münasibətilə təbrik edərək bildirib ki, müharibənin başlaması ilə az bir müddət ərzində 1181 Culfa rayon sakini ön cəbhəyə yollanıb. Onların yarıdan çoxu – 647-si müharibədən geri qayıtmayıb.

Vurğulanıb ki, Culfa rayonundan olan müharibə iştirakçıları və onların ailə üzvləri ötən illər ərzində hərtərəfli dövlət qayğısı ilə əhatə ediliblər.

Müharibə veteranlarına hədiyyələr təqdim olunduqdan sonra rayon Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının sədri Qurban Qurbanov çıxış edib.

Müharibə veteranları onlara göstərilən böyük ehtirama görə dövlətimizə minnətdarlıqlarını bildirib, tezliklə işğal altında olan torpaqlarımızda da Qələbə Gününün qeyd edilməsini arzulayıblar.

Tədbir Culfa Rayon Mədəniyyət Sarayının özfəaliyyət kollektivinin çıxışları ilə davam etdirilib.

Səhhətinə görə bayram tədbirində iştirak edə bilməyən veteranlara hədiyyələr evlərində təqdim olunub.

**Hüseyn ŞƏKƏRƏLİYEV**

*Ardı 4-cü səhifədə*

## Şahbuz rayonu



*Alman faşizmi üzərində qazanılan tarixi qələbənin 74-cü ildönümü münasibətilə Şahbuz rayonunda da tədbir keçirilib. Tədbir başlanmazdan əvvəl ictimaiyyət nümayəndələri 1941-45-ci illər müharibəsində iştirak edən qəhrəman oğullarının xatirəsinə yaradılmış Ana Abidə Kompleksinin önünə tər qərənfillər düzüblər.*

“Batabat” şadlıq sarayında davam etdirilən tədbirdə rayon İcra Hakimiyyətinin başçısı Rəfael Babayev veteranları Qələbə Günü münasibətilə təbrik edib. Bildirib ki, ümummilli liderimiz Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə müharibə veteranlarının problemlərinə xüsusi diqqət yetirib, onlara hərtərəfli qayğı ilə yanaşıb və sosial məsələlərin həlli istiqamətində mühüm addımlar atıb. 1941-1945-ci illər müharibə veteranlarını “Azərbaycan xalqının qızıl fondu” adlandıran ulu öndərin Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra 9 May müstəqil respublikamızda “Qələbə Günü” kimi rəsmiləşdirilib, dövlət bayramları sırasına daxil edilib, müharibə veteranlarının sosial müdafiəsi gücləndirilib.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikasında da İkinci Dünya müharibəsi iştirakçılarına və arxa cəbhədə fədakarlıq göstərən əmək adamlarına hərtərəfli qayğı göstərilir. Bu qayğıdan şahbuzlu veteranlara da pay düşüb.

Sonra Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurası Şahbuz Rayon Təşkilatının sədri Məmməd Bağırov, Yeni Azərbaycan Partiyası Şahbuz Rayon Təşkilatının sədri Rizvan Məmmədov çıxış edərək veteranları qələbə günü münasibətilə təbrik ediblər.

Diqqətə çatdırılıb ki, on minlərlə qurban hesabına qazanılan qələbənin əldə olunmasında şahbuzluların da rolu vardır.

Tədbirdə müharibə veteranı Əli Xəlilov tarixi qələbənin qazanılmasında Azərbaycanın qəhrəman oğullarının şücaətindən, müharibədə yüzlərlə şahbuzlunun iştirak etməsindən və onların əksəriyyətinin qəhrəmancasına həlak olmasından danışıb.

Sonra veteranlara hədiyyələr təqdim olunub. Tədbir iştirakçıları konsert proqramına baxıblar.

**Hicran ƏLİYEVA**

## Kəngərli rayonu



*Faşizm üzərində tarixi qələbənin 74-cü ildönümü ilə əlaqədar Kəngərli rayonunda da tədbir keçirilib. Tədbir iştirakçıları əvvəlcə Qıvraq qəsəbəsində 1941-1945-ci illər müharibəsi qurbanlarının xatirəsinə ucaldılmış abidəni ziyarət edib, abidə önünə tər güllər düzüblər.*

Çay süfrəsi arxasında davam etdirilən tədbirdə Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov veteranları qələbənin 74-cü ildönümü münasibətilə təbrik edib. Çıxışda vurğulanıb ki, İkinci Dünya müharibəsi zamanı Naxçıvan Muxtar Respublikasının əhalisi də döyüşlərdə şücaətlə iştirak edib, cəbhə üçün əllərindən gələni əsirgəməyib. Həmin qanlı-qadalı illərdə müharibəyə Kəngərli rayonundan 800 nəfərdən artıq insan göndərilib.

Qeyd edilib ki, ölkə başçısı cənab İlham Əliyevin imzaladığı növbəti sərəncama müvafiq olaraq Kəngərli rayonunda 39 nəfərə birdəfəlik maddi yardım verilməsi müharibə veteranlarına göstərilən ehtiramın ifadəsidir.

Kamal Ələkbərov müharibə veteranlarını bir daha qələbənin 74-cü ildönümü münasibətilə təbrik edib, onlara uzun ömür, cansağlığı arzulayıb.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurası Kəngərli Rayon Təşkilatının sədri İsmayıl Hüseynquliyev, rayon Ağsaqqallar Şurasının sədri Nahas Səfərov çıxış edərək veteranlara göstərilən diqqət və qayğıdan danışıblar.

Tədbirdə, həmçinin veteran hərəkatında fəal iştirakına görə Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurası Kəngərli Rayon Təşkilatının sədri İsmayıl Hüseynquliyevə Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının “30 il” yubiley medalı təqdim edilib.

Rayon Mədəniyyət Şöbəsinin “Kəngər” instrumental ansamblı üzvlərinin və uşaq musiqi məktəbləri kollektivlərinin çıxışları alqışlarla qarşılanıb.

Sonra veteranlara hədiyyələr verilib.

**Babək İSMAYILOV**

## Sədərək rayonu



Alman faşizmi üzərində qazanılan qələbənin 74-cü ildönümü münasibətilə Sədərək rayonunda keçirilən tədbirdən əvvəl rayon ictimaiyyətinin nümayəndələri, müharibə veteranları, idarə, müəssisə və təşkilatların əməkdaşları Sədərək kəndindəki Şəhidlər xiyabanına gələrək 1941-1945-ci illər və Azərbaycan Vətən Müharibəsi iştirakçılarının əziz xatirəsinə ucaldılan abidələrin önünə və burada uyuyan türk əsgərinin məzarı üzərinə gül dəstələri qoyublar. Şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Heydərabad qəsəbəsində çay süfrəsi arxasında davam etdirilən tədbirdə rayon İcra Hakimiyyətinin başçısı Həbib İbrahimov çıxış edərək bildirib ki, 1941-1945-ci illər müharibəsində Sədərək kəndindən 462 nəfər iştirak edib. Onların 263-ü qəhrəmancasına həlak olub.

İcra başçısı qeyd edib ki, müharibə veteranlarının mənzillərlə, şəxsi minik maşınları ilə təmin edilmələri, onların müalicə olunmaq üçün müxtəlif sanatoriyalara, pansionatlara göndərilmələri, digər problemlərinin həll edilməsi üçün dövlətimiz tərəfindən bütün mümkün tədbirlər həyata keçirilir. Həbib İbrahimov müharibə və arxa cəbhə veteranlarını qələbənin 74-cü ildönümü münasibətilə təbrik edib.

Veteranlara qiymətli hədiyyələrin təqdim olunduğu tədbirdə Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurası Sədərək Rayon Təşkilatının sədri Əkbər Kərimov və Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Arif Qasımov və Qadınlar Şurasının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Vüsalə Əliyeva çıxış ediblər.

Tədbirin bədii hissəsində rayon Mədəniyyət Şöbəsinin “Qeyrət qalası” instrumental ansamblı üzvlərinin ifasında səsləndirilən mahnılar, nümayiş olunan ədəbi-bədii kompozisiya tədbir iştirakçıları tərəfindən alqışlarla qarşılanıb.

**Sərxan İSMAYILOV**

## Bu festivalın təqvimdə xüsusi yeri vardır

*Ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilən “Naxçıvan-2019” Beynəlxalq Şahmat Festivalında iştirak edən zəka sahiblərinin gərgin və inadlı mübarizəsi davam edir. Onlardan aldığımız növbəti müsahibələri sizə təqdim edirik.*

***Nicat Abasov – azərbaycanlı qrossmeyster:***



– Artıq beşinci dəfədir ki, Naxçıvanda keçirilən Beynəlxalq Şahmat Festivalında iştirak edirəm. Təşkilatçılıq çox yüksək səviyyədədir. Deyərdim ki, Avropada keçirilən çox yarışlardan yaxşı təşkil olunub. Naxçıvan şəhərinin isə ayrı bir özəlliyi var: şəhər təmiz, gözəl və sakitdir. Azərbaycanın digər guşələrindən çox seçilir. Təbii ki, şəhərin özünəməxsusluğu var.

Şahmatçılar bu turnirə sevə-sevə gəlirlər ki, mən də onların sırasındayam. Bu festivalın təqvimdə xüsusi bir yeri var. Blits-turnirə gəlincə, çox maraqlı və gərgin yarış keçdi. Son tura qədər kimin qalib gələcəyi məlum deyildi. Sonda şans mənim tərəfimdə oldu və blits-turnirin çempionu adını qazandım.

***Tornike Sanikidze – gürcüstanlı qrossmeyster:*** – Düzdür, əvvəllər ölkənizdə bir dəfə olmuşam, lakin Naxçıvana ilk səfərimdir. Turnir barədə digər həmkarlarımdan məlumat aldım və qatılmağa qərar verdim. Etiraf edək ki, festivalda güclü şahmatçılar mübarizə aparır. Bu, bizim üçün əlavə stimuldur, çünki rəqiblərin güclü olması turnirin səviyyəsindən xəbər verir. Təşkilatçılıq yüksək səviyyədədir. Şəhərin sakit olması isə şahmat oynamaq üçün əlverişlidir. Deyə bilərəm ki, cəmi bir həftə ərzində burada olsam da, Naxçıvanı çox sevdim.



***Zaur Qasanov – rusiyalı FİDE ustası:*** – Naxçıvana ikinci səfərimdir. İlk dəfə qardaşımı müalicə məqsədilə Duzdağ Fizioterapiya Mərkəzinə gətirmişdik. Deyim ki, möcüzəvi duz mağarasındakı müalicənin güclü effektiv təsirini gördük. İndi isə festivalda iştirak etmək üçün Rusiyanın Novorossiysk şəhərindən anamla bura gəlmişəm. Turnir barədə onu deyə bilərəm ki, burada çox güclü şahmatçılar mübarizə aparır. Hər oyun turnir cədvəlindəki mövqeyi dəyişə bilər. Odur ki, hər bir görüşə yaxşı hazırlaşıram. Naxçıvan şəhəri gözəl və sakitdir. Təşkilatçılıq isə mükəmməldir.



**✍ Ceyhun MƏMMƏDOV**

## Beynəlxalq Şahmat Festivalının 8-ci turuna yekun vurulub



*Naxçıvan şəhərindəki Şahmat Mərkəzində ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilmiş “Naxçıvan-2019” Beynəlxalq Şahmat Festivalının 8-ci turuna yekun vurulub.*

Bu turda “A” qrupunun lideri amerikalı qrossmeyster Timur Qarayev (2560) iranlı zəka sahibi Mehdi Orimi Qulamini (2406) məğlub edərək qrup liderliyini qoruyub. Azərbaycanlı qrossmeyster Nicat Abasov (2633) qrossmeyster Vüqar Rəsulova (2533) qalib gəlib. Azərbaycanlı qrossmeyster Eltac Səfərli (2624) azərbaycanlı beynəlxalq usta Vüqar Əsədli ilə (2454), özbəkistanlı beynəlxalq usta Ortik Niqmatov (2469) isə belçikalı qrossmeyster Vadim Malaxatko (2508) ilə üz-üzə gəlib, hər iki görüş heç-heçə nəticələnib.

Naxçıvanlı zəka sahiblərindən qrossmeyster Urfan Sevdimalıyev (2352) ukraynalı qrossmeyster Eldar Qasanovla (2506) oyunda üstün olub. Beynəlxalq usta Toğrul Həsənzadə (2323) azərbaycanlı beynəlxalq usta Loğman Quliyevə (2319), beynəlxalq usta Talıb Babayev (2329) isə hindistanlı şahmatçı Şantanu Bambureniyə (2261) məğlub olub. FİDE ustası Pərviz Qasımov (2328) qrossmeyster Sərxan Quliyevlə (2330) “sülh” bağlayıb. FİDE ustası Sadiq Məmmədov (2205) FİDE ustası Gövhər Beydullayeva (2316) ilə qarşılaşmada məğlub olub.

8 görüşdən 7 xal toplayan amerikalı qrossmeyster liderliyə yüksəlib. Azərbaycanlı qrossmeyster Nicat Abasov (2633) 6 xalla qrup ikincisidir. Digər 6 zəka sahibi isə 5,5 xalla 3-8-ci yerləri bölüşür.

“B” qrupunda Elxan Bayramov (2158) Amil Abbasovu (2215) məğlub etməklə 7,5 xalla vahid liderliyə yüksəlib.

Atilla Eynullayev (2175), Eldar Musayev (2152) və Fariz Əhmədovun (2158) isə aktivində 6,5 xal var.

Festivalın “C” qrupunda İlqar Məmmədov, Niyazi Qafarov və Nazar Talqatovun aktivində 7 xal var.

**Tural AĞAYEV**

## “Ziyası böyük olan kiçik kitablar” adlı sərgi-guşə yaradılıb



Naxçıvan Müəllimlər İnstitutunda keçirilən təqdimat mərasimini giriş sözü ilə açan institutun rektoru, dosent Elbrus İsayev qeyd edib ki, son illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin yüksək diqqət və qayğısı ilə kitabxanalar yenidən qurulub, kitab fondlarına milyonlarla yeni kitablar əlavə edilib. Belə mədəniyyət müəssisələrinin zəruri ədəbiyyatlarla zənginləşdirilməsi də bu məqsədyönlü siyasətin tərkib hissəsidir. Mütaliəyə marağın artırılması, gənclərdə oxu mədəniyyətinin inkişaf etdirilməsi isə təhsil müəssisələrinin qarşısında duran zəruri vəzifələrdəndir. Bu baxımdan ilk dəfə olaraq Naxçıvan Müəllimlər İnstitutunun kitabxanasında “Miniatür kitab” guşəsinin yaradılmasının mühüm əhəmiyyəti vardır.

Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri Asim Yadigar, Naxçıvan Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva tədbirdə çıxış ediblər.

İnstitutun professoru, filologiya elmləri doktoru Akif İmanlı şəxsi kitabxanasından yeni yaradılmış guşəyə miniatür kitab hədiyyə edib və bildirib ki, bu təşəbbüs Kitabxanaçılıq və informasiya ixtisasında təhsil alan tələbələr üçün həm də tədris bazası rolunu oynayacaqdır.

Sonra miniatür kitab kolleksiyasındakı kitablar haqqında geniş məlumat verilib.

Kitab sərgisində ümummilli lider Heydər Əliyevin müdrik siyasətini əks etdirən miniatür kitablar, naxçıvanlı şair və rəssamların yaradıcılığına həsr olunmuş nümunələr tədbir iştirakçılarında böyük maraq doğurub.

***Naxçıvan Müəllimlər İnstitutunun mətbuat xidməti***

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 322